

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 85 (23.972)

10 may 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 77 il ötür. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıb.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır.

Azərbaycan xalqı artıq ikinci ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

***

Prezident İlham Əliyev mayın 9-da Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Naxçıvanda faşizm üzərində Qələbənin 77-ci ildönümü qeyd olunub

1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 77-ci ildönümü Naxçıvan Muxtar Respublikasında qeyd olunmuşdur.

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gəlmiş, veteranlarla görüşmüş, onları qələbə münasibətilə təbrik etmişdir.



Sonra Ali Məclisin Sədri abidə önünə gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də müharibədə həlak olanların əziz xatirəsini ehtiramla yad etmişlər.

Naxçıvan Hərbi Qarnizonunun nümunəvi Hərbi Orkestrinin ifasında marşlar səslənmişdir.

Faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük xidmətləri olmuşdur. 1941-1945-ci illər müharibəsində xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirmiş, faşizm üzərində qələbəyə mühüm töhfə vermişdir. Müharibənin başlandığı ilk gündən səfərbərlik elan olunmuş, on minlərlə azərbaycanlı döyüş cəbhəsinə könüllü göndərilmək üçün ərizə vermişdir. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 min oğul və qızını yola salmış, onların 300 mindən çoxu döyüş meydanlarından geri qayıtmamışdır. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq nümunəsi göstərmişdilər.





Muxtar respublikamızın əhalisi də alman faşizmi üzərində qələbənin qazanılmasında böyük qəhrəmanlıqlar göstərmişdir. 402-ci atıcı diviziya Naxçıvanda formalaşaraq buradan birbaşa döyüş meydanına yola salınmışdır. Həmyerlilərimiz Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçərək göstərdikləri qəhrəmanlıqlarla adlarını tarixə yazmışlar. Döyüşlərdə iştirak edən naxçıvanlılardan 3-ü Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, bir nəfər “Şöhrət” ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 102-si “Şöhrət” ordeninin ayrı-ayrı dərəcələri ilə, 105-i birinci və ikinci dərəcəli “Vətən Müharibəsi”, 315-i “Qırmızı Ulduz”, 29-u “Qırmızı Bayraq” ordenləri ilə təltif olunmuşlar.

Ardı 2-ci səhifədə

***“Azərbaycan xalqı İkinci Dünya müharibəsində böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirmiş, həm cəbhədə, həm arxada vuruşaraq, çalışaraq qələbənin əldə olunmasında öz xidmətlərini göstərmişdir. Bu qələbə bəşəriyyət tarixində bütün qara qüvvələrə, faşizmə qarşı mütərəqqi qüvvələrin qələbəsi idi. Azərbaycan xalqı bu qələbənin naminə böyük qurbanlar veribdir”***, – deyən ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 9 May Qələbə Günü kimi rəsmiləşdirilərək dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının imtiyazları və statusları bərpa olunmuşdur. Ümummilli liderimizin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin qələbə bayramı ərəfəsində müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını almışdır. Ölkə Prezidentinin “1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 2022-ci il 19 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının daha bir ifadəsidir.

44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüz təmin olundu, tarixi Qələbə qazanıldı. Vətən müharibəsindəki Qələbə xalqımızın şanlı dövlətçilik və hərb tarixinin, igidlik və mərdliyinin daha bir ifadəsinə çevrildi.

Həmin gün Naxçıvan Muxtar Respublikasının rayonlarında da 1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 77-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Ərzurum Atatürk və Van Yüzüncü İl universitetlərinin rektorları ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış, vaxtilə hər iki universitetdə olduğunu xatırlatmışdır. Azərbaycan-Türkiyə əlaqələrindən bəhs edən Ali Məclisin Sədri təhsil sahəsindəki əməkdaşlığa diqqəti çəkmiş, Naxçıvanda Türkiyədən olan tələbələrin təhsil aldığını bildirmiş, universitetlər arasında qarşılıqlı təcrübə, eləcə də müəllim-tələbə mübadiləsinin, ikili diplom layihələrinin həyata keçirilməsinin əhəmiyyətini vurğulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Ərzurum Atatürk Universitetinin rektoru, professor Ömər Çomaklı Naxçıvan Dövlət Universiteti ilə qarşılıqlı əlaqələrdən bəhs etmiş, səfərin universitetlər arasındakı əməkdaşlıqda faydalı olacağını bildirmişdir.

Van Yüzüncü İl Universitetinin rektoru, professor Həmdullah Şevli də səfərin təhsil sahəsindəki əlaqələrə mühüm töhfə verəcəyini qeyd etmiş, ali təhsil müəssisələri arasındakı əməkdaşlıqdan danışmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Müstəqil Azərbaycanın memarı

***Tarixi proseslərə nəzər saldıqda bir daha aydın olur ki, ictimai-siyasi proseslərdə məhz əsl liderlər məsuliyyəti öz üzərlərinə götürərək xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs ideallarını gerçəkləşməsində həlledici rol oynayır, bununla da özlərinə əbədiyaşarlıq qazanırlar. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Xalqımızın müstəqillik arzusunu gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan ulu öndərimiz həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifidir.***

Ümummilli liderimiz siyasi müdriklik və dühа ilə hələ totalitar sovet rejimi dövründə Azərbaycan xalqının müstəqil dövlətçilik konsepsiyasını formalaşdırmış, sonralar isə ilk tarixi fürsətdə elə özü də bu mühüm siyasi konsepsiyanı həyata keçirmişdir. Dahi öndər böyük siyasətdə qət etdiyi çətin və şərəfli yol, qətiyyətli addımlarla Azərbaycan xalqına və dövlətçiliyinə misilsiz töhfələr bəxş etmişdir.

1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan diyarında dünyaya göz açan, gəncliyindən öz dərin zəkası və fitri istedadı ilə seçilən, dövlət idarəçiliyi sirlərinə yiyələnən ulu öndər Heydər Əliyev deyirdi: ***“Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni, bütövlükdə, Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm”.***

Dahi şəxsiyyət 1969-1982-ci illərdə respublikaya rəhbər seçiləndən sonra Azərbaycan qısa müddətdə geridə qalmış aqrar bir bölgədən ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. Həmin dövrdə ulu öndərin birbaşa təşəbbüsü və rəhbərliyi ilə respublikamızda sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul edilmiş, yüzlərlə sənaye, təhsil, mədəniyyət, səhiyyə müəssisələri, yeni yaşayış binaları tikilmiş, parklar və körpülər salınmış, milli kadrların hazırlanması diqqət mərkəzində saxlanılmışdır. Xüsusilə gələcək müstəqil Azərbaycanın əsas dayağına çevriləcək milli ordu quruculuğu siyasəti ön planda olmuşdur. Ulu öndərin böyük siyasi iradəsi hesabına respublikamızda ilk hərbi təmayüllü məktəb – Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılmışdır. Həmin hərbi məktəbin yaradılması ilə milli hərbi kadrların formalaşdırılması yeni mərhələyə qədəm qoymuşdur. Bu gün ölkəmizdə hərbi uğurların təməli də məhz həmin dövrdə atılmış bu cəsarətli addıma əsaslanır.

Görkəmli dövlət xadimi 1982-1987-ci illərdə Siyasi Büronun üzvü olanda və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifəsində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyini hər zaman üstün tutmuşdur. Təsadüfi deyil ki, dahi şəxsiyyət SSRİ rəhbərliyində təmsil olunan zaman erməni şovinistləri respublikamıza qarşı əsassız ərazi iddiaları irəli sürməyə cəsarət edə bilməmişlər. Buna görədir ki, böyük təzyiqlər nəticəsində 1987-ci ildə ulu öndər siyasi hakimiyyətdən uzaqlaşandan iki həftə sonra Azərbaycanın keçmiş Dağlıq Qarabağ ərazisinin müstəqilliyi məsələsi gündəliyə çıxarılmışdı. Erməni millətçiləri və onların Moskvadakı havadarlarının Azərbaycana qarşı təzyiqləri davamlı xarakter almış, nəticədə, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxt Bakı şəhərinə hərbi qoşun qüvvələri yeridilmişdir. Həmin vaxt böyük siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan Nümayəndəliyinə gedən ulu öndər Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunu və şəxsən baş katib Mixail Qorbaçovu kəskin şəkildə ittiham edərək baş vermiş hadisənin hərbi cinayət olduğunu bütün dünyaya çatdırmışdır. Bundan sonra ulu öndərə qarşı böyük təzyiqlər başlanmış, dahi şəxsiyyət 1990-cı il iyul ayının 20-də Bakıya, iki gün sonra isə doğulub boya-başa çatdığı Naxçıvana gəlmiş, burada xalq tərəfindən böyük sevgi və coşqu ilə qarşılanmışdır.

Görkəmli dövlət xadiminin doğulub boya-başa çatdığı Naxçıvana qayıdışı tarixi zərurət idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bununla bağlı demişdir: ***“Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda ovaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu”.***

Dahi şəxsiyyətin Moskva həyatından sonra mənalı ömrünün 3 ilini Naxçıvanda keçirməsi, 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində böyük addımların atılması ilə nəticələnmiş, həm də muxtar respublika işğal təhlükəsindən qorunmuşdur. 1990-cı ilin noyabr ayında ulu öndərin sədrliyi ilə keçirilən Ali Məclisin ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil dövlətçilik tariximizin şanlı səhifəsidir. Sovetlər Birliyinin hələ mövcud olduğu bir dövrdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvanda qaldırılması, muxtar respublikanın adından “Sovet Sosialist” sözlərinin çıxarılması, SSRİ-nin saxlanması barədə keçirilən referendumda muxtar respublikanın iştirak etməməsi böyük cəsarət və qətiyyət tələb edirdi. Bu tarixi hadisə nəinki Azərbaycanın, Sovetlər Birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasının yolunu açmışdır. Həmçinin sonrakı mərhələdə dahi öndərin Naxçıvandakı siyasi fəaliyyəti ərzində ərazinin erməni işğalından müdafiəsi, milli şüurun dirçəlişi, milli dövlət strukturlarının formalaşması kimi mühüm tarixi nailiyyətlər əldə olunmuş, xalqla həmrəyliyin təntənəsi öz təsdiqini tapmışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili ilə Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradılmışdır. Ulu öndər 1992-ci ildə tarixi Moskva və Qars müqavilələrini gündəmə gətirməklə Ermənistanın təcavüzkar siyasətini, Naxçıvanın muxtariyyət statusunu, əzəli Azərbaycan torpağı kimi toxunulmazlığını beynəlxalq miqyasda bir daha təsdiqləmiş, ağır blokada şəraitində olan muxtar respublika iqtisadi böhrandan çıxarılmışdır. Bu gün yüz minlərlə siyasi həmfikri öz ətrafında birləşdirən, iqtidar partiyası kimi liderliyini qoruyub saxlayan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün bəhrəsidir. 31 Dekabrın “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi qeyd olunması ilə bağlı qərarla dünya azərbaycanlılarının milli həmrəylik ideologiyasının təməli də həmin dövrdə Naxçıvanda qoyulmuşdur. Bir sözlə, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü tariximizə qızıl hərflərlə yazılmışdır.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə Bakıya qayıdışı elə bir tarixi dövrə təsadüf edirdi ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, vətəndaş qarşıdurması Azərbaycanı dövlət müstəqilliyinin əbədilik itirilməsi faktı ilə üz-üzə qoymuşdu. Məhz belə bir dövrdə ölkəni yaranmış bu vəziyyətdən yalnız Heydər Əliyev dühası çıxara bilərdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə demişdir: ***“Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu”.***

1993-cü ilin 15 iyununda Milli Məclisin Sədri, həmin ilin 3 oktyabrında xalqın böyük dəstəyi ilə ölkə Prezidenti seçilən ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi on il ərzində Azərbaycan üçün əsrə bərabər işlər görmüşdür. Məhz Heydər Əliyev şəxsiyyəti, əzmkarlığı, qətiyyəti Azərbaycan xalqını və dövlətçiliyini, o cümlədən iqtisadiyyatını dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmişdir. Görkəmli dövlət xadiminin apardığı uğurlu siyasət nəticəsində 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycanın gələcək iqtisadi imkanlarını, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiya isə ölkəmizin hüquqi, demokratik dövlət quruculuğu yolunu müəyyənləşdirmişdir. Görülən işlərin sayəsində Azərbaycan qısa müddətdə dünya ölkələri tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilmiş, ölkəyə xarici investisiyanın cəlb edilməsi yolu ilə iqtisadi tərəqqiyə, əhalinin rifah halının yüksəldilməsinə nail olunmuşdur.

Bu gün ulu öndər Heydər Əliyev siyasi yolunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz siyasi, iqtisadi və hərbi cəhətdən regionun ən güclü ölkəsinə çevrilmişdir. Təsadüfi deyil ki, Azərbaycanın gündən-günə artan nüfuzu, iqtisadi və siyasi imkanları uzun illərdir, işğal altında saxlanılan torpaqlarımızın azad olunmasına da imkan vermişdir. 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu tamamilə məhv edən Azərbaycan Silahlı Qüvvələri düşməni kapitulyasiya aktını imzalamağa məcbur edərək tarixi ədalətin bərpasına nail oldu. Vətən müharibəsində əldə edilən Qələbə ölkəmizin hərbi gücünü, qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Həyata keçirdiyi əməliyyatlarla bütün dünya ölkələrini heyran edən Azərbaycan regionda yeni reallıqlar yaradaraq 30 ildən artıq blokadaya salınan Naxçıvan Muxtar Respublikasının da Ana Vətənlə kommunikasiya əlaqələrinin bərpasının yolunu açmışdır.

Azərbaycanın ayrılmaz hissəsi olan, Heydər Əliyev ideyalarının böyük sədaqətlə davam etdirildiyi Naxçıvan Muxtar Respublikası bu gün özünün hərtərəfli inkişaf və tərəqqi dövrünü yaşayır. Uzun illərdir, blokada şəraitində olmasına baxmayaraq, muxtar respublika bütün sahələr üzrə inkişaf edir. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artım tempinə görə rekordsmen bölgədir… Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir”.***

*Bu gün Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının əldə etdiyi bütün uğurlar Heydər Əliyev siyasi yolunun bəhrələridir. Bu yol bizə inkişaf və sabitliyi, ən əsası isə işğalçı düşmən üzərində Qələbəni qazandırdı. Bu yol bizə gələcəkdə daha xoşbəxt günlər bəxş edəcək. Çünki dahi Heydər Əliyevin şah əsəri – müstəqil Azərbaycan Respublikası var olduqca ulu öndər Heydər Əliyev də var olacaq və yaşayacaqdır!*

**“Şərq qapısı”**



*Azərbaycan xalqının və müstəqil dövlətimizin inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri bu dahi şəxsiyyətin həm ölkə daxilində qazandığı misilsiz nailiyyətlərlə, həm də uğurla həyata keçirdiyi xarici siyasət sahəsində əldə etdiyi mühüm nəticələrlə əlaqədardır. Ölkədaxili siyasətdə böyük məharət göstərən ulu öndər Heydər Əliyev xarici siyasət sahəsində də yüksək professionallıq nümayiş etdirmişdir. Buna görə də görkəmli dövlət xadiminin apardığı daxili və xarici siyasət kursu biri digərini tamamlamış və vəhdət təşkil etmişdir. Ulu öndər ölkə miqyasında böyük quruculuq proqramlarının dahi memarı kimi qəbul edilmiş, xarici siyasətdə isə mahir diplomat istedadına malik olmuşdur. Dünyanın görkəmli dövlət xadimləri dahi şəxsiyyət Heydər Əliyevin daxili və xarici siyasəti məharətlə uzlaşdıraraq vəhdətdə həyata keçirməsinə heyranlıqla yanaşmış, yüksək qiymət vermişlər.*

# Xarici siyasətdə böyük strateji addımlar

Görkəmli dövlət xadimi Heydər Əliyevin xarici siyasətində tarazlaşdırma prinsipi əsas olmuşdur. O, beynəlxalq münasibətlərdə həmişə tarazlığı qoruyub saxlamış, qarşılıqlı etimadı zəruri hesab etmişdir. Ulu öndər xarici siyasətdə qarşılıqlı mənafelərin nəzərə alınmasını əlaqələrdə davamlı inkişafın təmin olunması üçün zəruri saymışdır. Ümummilli lider Heydər Əliyev xarici siyasətdə birtərəfli münasibətlərə siyasi hegemonluğun ifadəsi kimi baxmış və bu yolun tərəflərdən heç birinə fayda verməyəcəyi qənaətində olmuşdur. Böyük dövlət xadimi möhkəm surətdə inanırdı ki, xarici siyasətdə qarşılıqlı etimad münasibətləri olmazsa, beynəlxalq əlaqələrdə ortaq tarazlığı qoruyub saxlamaq və inkişaf etdirmək mümkün deyildir. Azərbaycan Respublikasının həm sovet dövründə və həm də müstəqillik mərhələsində ölkələrarası münasibətlərdə qarşılıqlı etimadı formalaşdıran dahi şəxsiyyət dövlətimizə başucalığı gətirmiş, etibarlı dostlar və tərəfdaşlar qazandırmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xarici siyasət kursunda mehriban qonşuluq və əməkdaşlıq siyasətinin formalaşdırılması və inkişaf etdirilməsinə ciddi fikir vermişdir. Sovet hakimiyyəti illərində Zaqafqaziya respublikaları arasında qarşılıqlı etimad əsasında əməkdaşlığın daim inkişaf etdirilməsini zəruri saymışdır. Birlik və həmrəylik üçün göstərdiyi xidmətlərə görə ulu öndər Heydər Əliyev Qafqazın lideri kimi qəbul edilmişdir. Hətta Sovetlər Birliyi dövründə SSRİ miqyasında böyük mövqe qazanmış, Gürcüstan Sovet Respublikasına rəhbərlik etmiş Eduard Şevardnadze məhz görkəmli dövlət xadimi Heydər Əliyevi nəzərdə tutaraq demişdir ki, "Liderlik baxımından Azərbaycan xalqının bəxti gətirmişdir". SSRİ xarici işlər naziri vəzifəsində çalışmış, ümummilli liderlə Siyasi Büroda birlikdə təmsil olunmuş Eduard Şevardnadze bu fikirdə idi ki, dahi siyasətçi Heydər Əliyev yalnız yaşadığı epoxanın deyil, bütün dövrlərin lideridir. Böyük güc sahibləri olan dövlətlərin rəhbərləri də böyük şəxsiyyət Heydər Əliyevin simasında dünyanın görkəmli dövlət xadimini, mahir siyasətçisini və peşəkar diplomatını görmüşlər.

Görkəmli dövlət xadiminin mehriban qonşuluq siyasətində Gürcüstanın daim xüsusi yeri olmuşdur. Azərbaycanın siyasi və iqtisadi taleyində xüsusi yeri olan "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin Gürcüstan vasitəsilə gerçəkləşdirilməsinin təmin edilməsi ulu öndər Heydər Əliyevin bu dost ölkəyə olan xüsusi ehtiramının ifadəsidir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz ixracı layihələrinin Gürcüstandan keçməklə gerçəkləşdirilməsi uzaqgörən böyük siyasətçinin dost və qonşu ölkənin də inkişafına təkan vermək, köməklik göstərmək üçün düşündüyü böyük layihədir. Doğrudur, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri həm də işğalçı Ermənistanı regionda təkləmək, sıxışdırmaq siyasətini yerinə yetirmişdir. Lakin Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri iqtisadi əhəmiyyəti ilə yanaşı, dostluğa, həmrəyliyə, qarşılıqlı əməkdaşlığa hesablanan Azərbaycan-Gürcüstan və Türkiyə layihələri kimi də çox mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük səyləri ilə Gürcüstanın Batumi şəhərində irimiqyaslı neftayırma zavodlarının tikilib istifadəyə verilməsi ölkəmizin maraqları ilə yanaşı, dost və qonşu ölkənin də iqtisadi mənafelərinin təmin olunmasına yardım göstərir. Azərbaycanın Batumidəki neftayırma zavodları vasitəsilə bu regionda Gürcüstan üçün ənənəvi olmayan yeni neft emalı sənayesi formalaşdırılmaqdadır. Eyni zamanda Prezident cənab İlham Əliyevin gerçəkləşdirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu da regional iqtisadi əməkdaşlığın, mehriban qonşuluq siyasətinin daha da genişlənib möhkəmləndirilməsinə uğurla xidmət edir.

Yeni tarixi epoxada Avropa ölkələri ilə çoxcəhətli münasibətlərin qurulmasında görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləri xüsusi qeyd edilməlidir. Bu dahi şəxsiyyət Prezident seçilərkən ilk səfərlərindən birini Fransa Respublikasına etməsi ilə müstəqillik qazanmış Azərbaycanın Qərbyönlü demokratik inkişaf yolunu seçdiyini bütün dünyaya bəyan etmişdir. Ulu öndər siyasi rəhbərliyi dövründə Avropa ölkələri ilə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir. Ümummilli lider Heydər Əliyevin Avropa ölkələrinə ardıcıl səfərləri bu qitə ilə gənc Azərbaycan Respublikasının arasında möhkəm və etibarlı əməkdaşlıq körpülərinin yaradılması ilə nəticələnmişdir. Bu zəmində, xüsusən Azərbaycanın Böyük Britaniya ilə əlaqələri çoxcəhətli əsaslar üzərində geniş inkişaf etmişdir. Azərbaycan-Almaniya əlaqələri məhdud "Mercedes" maşınları ticarəti sferasından tibb, təhsil, kənd təsərrüfatı, ticarət, turizm və sair istiqamətlərə doğru sürətlə inkişaf etdirilmişdir. Ulu öndərin Azərbaycan-İtaliya əlaqələrinin inkişaf etdirilməsi üçün vaxtilə açdığı yollar bu gün Prezident cənab İlham Əliyev tərəfindən böyük əməkdaşlıq magistrallarına çevrilmişdir. Bu gün Azərbaycan Respublikasında İtaliya ilə bütün əsas sahələr üzrə geniş əməkdaşlıq layihələri həyata keçirilməkdədir. İtaliya şirkətləri Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda həyata keçirilən Böyük qayıdış hərəkatında yaxından iştirak edirlər. Bu yaxınlarda təsis edilməsinə start verilmiş Azərbaycan-İtaliya birgə universiteti ölkələrimiz arasındakı mövcud dostluq və əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinə və inkişaf etdirilməsinə öz töhfələrini verəcəkdir.

Müstəqil Azərbaycan Respublikası Avropanın keçmiş sosialist ölkələri blokuna daxil olan Macarıstan, Polşa, Bolqarıstan, Rumıniya, Çexiya, Slovakiya və başqa ölkələrlə də dövlət müstəqilliyi meyarları əsasında qarşılıqlı əlaqələrini genişləndirməkdə davam edir. Macarıstan-Azərbaycan dostluğu və əməkdaşlığı, ümumiyyətlə, qarşılıqlı əlaqələrin böyük etimada əsaslandığını hər addımda sübut etməkdədir. Bolqarıstan Respublikasının Avropa bazarlarında Azərbaycanın karbohidrogen ehtiyatlarına bəslədiyi maraq iqtisadi əhəmiyyəti ilə yanaşı, həm də ölkələrarası münasibətlərdəki dostluq və həmrəyliyin də əyani təzahürüdür.

Bütün bunlar müstəqil Azərbaycan dövlətinin hələ ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə Avropa Şurasının üzvlüyünə qəbul edilməsi ilə nəticələnmişdir. Hələ bir çox Avropa dövlətinin Avropa Şurasına qəbul edilməsi məsələlərinin müzakirə prosesində olduğu bir dövrdə Azərbaycanın Avropa Şurasının üzvlüyünə qəbul edilməsi dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin parlaq təntənəsidir. Avropa Şurasının qarşısında Azərbaycanın Dövlət Bayrağının dalğalandırılması Heydər Əliyev dühasının əməli əsəridir. Sovet hakimiyyəti illərində Azərbaycan Respublikasını Sovetlər İttifaqının ən ali orqanı olan Siyasi Büro səviyyəsinə qaldıran görkəmli dövlət xadimi Heydər Əliyev müstəqillik dövründə də respublikamızı Avropa Şurası miqyasına çatdırmışdır. Bu tarixi hadisələr Heydər Əliyev dühasının genişliyini, böyüklüyünü əyani şəkildə təsəvvür etməyə imkan verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın Avropa Şurası səviyyəsində inkişafını daha da genişləndirmək istiqamətində məqsədyönlü şəkildə iş aparmaqla ölkəmizə əlavə imkanlar, yeni dostlar və tərəfdaşlar qazandırır. Prezident cənab İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərlik etməsi müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən böyük uğurudur.

Bütün bunlarla bərabər, görkəmli dövlət xadimi Heydər Əliyevin beynəlxalq münasibətlərə dair siyasətində və fəaliyyətində Asiya faktoruna da daim yüksək diqqət yetirilmişdir. Ulu öndərin Azərbaycan Respublikasının Asiya ölkələri ilə əlaqələrə müsbət münasibəti müstəqillik dövründə Avropa Şurası tərəfindən həyata keçirilməsinə başlanılan Şərq tərəfdaşlığı siyasətinin müddəaları ilə səsləşdiyindən Qərbdən də dəstək almışdır. Geniş mənada, Asiya ölkələri ilə əlaqələrin uğurla davam etdirilməsi həm də müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin Şərq dünyasına verdiyi xüsusi önəmin də nəticəsi idi.

Asiya istiqamətində ümummilli liderin atdığı ilk böyük addımlar müstəqil Azərbaycan dövlətinin İran İslam Respublikası ilə çoxcəhətli əlaqələrinin yaradılması ilə başlanmışdır. Ulu öndərin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən İran İslam Respublikası ilə yaratdığı möhkəm əlaqələr, geniş mənada, müstəqil Azərbaycanın Asiyaya, Şərqə doğru münasibətlərinin möhkəm əsaslarını təşkil etmişdir. Dövlət müstəqilliyinin başlanğıc dövrünün ən gərgin zamanlarında görkəmli dövlət xadimi Heydər Əliyevin İran İslam Respublikasının ozamankı rəhbərləri ilə tarixi görüşləri, əldə etdiyi razılaşmalar, imzaladığı mühüm tarixi əhəmiyyətə malik sənədlər, açdığı yollar həm ağır blokada şəraitində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasını Ermənistanın haqsız təcavüzlərindən qorumuş, iqtisadi böhrandan xilas etməyə xidmət etmiş, həm də bu əbədi qonşu ölkə ilə qarşılıqlı etibarlı münasibətlərin möhkəm əsaslarını formalaşdırmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin möhkəm və etibarlı qonşuluq siyasətində İran İslam Respublikası ilə çoxcəhətli əlaqələrə xüsusi diqqət yetirməsi, bu ölkə ilə bir çox dövlətlərarası beynəlxalq layihələrin həyata keçirilməsinə ciddi fikir verməsi əsası ulu öndərimiz tərəfindən qoyulmuş müdrik siyasətin yeni tarixi şəraitdəki uğurlu davamıdır. Bu gün Azərbaycan-İran əlaqələri bütün sahələr üzrə sürətlə inkişaf edir və hər iki ölkə bu əlaqələrdən qarşılıqlı şəkildə faydalanır.

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı, Pakistan, Hindistan, Əfqanıstan, Banqladeş və sair Şərq müsəlman ölkələri ilə geniş əlaqələri Asiya ilə əlaqələrin miqyasında daha da genişləndirilmişdir. Asiya ölkələri ilə əlaqələrdə islami dəyərlər amilinin nəzərə alınması həm də müstəqil Azərbaycan dövlətində keçmiş sovet dövlətindəki ateizm təbliğatından fərqli olaraq ölkəmizdə islam-müsəlman sivilizasiyası amilinə diqqət yetirilməsini də gündəmdə saxlamağın nəzərə alınmasını şərtləndirmişdir. Ümummilli lider Heydər Əliyevin müqəddəs Kəbə ziyarətinə getməsi, Bakıda Bibiheybət məscidinin memarlıq əsəri kimi yenidən inşasını təmin etməsi, Naxçıvanda Kazım Qarabəkir məscidinin açılışında nitq söyləməsi dünyəvi dövlət olan Azərbaycanda İslam dininin rolunu, yerini və əhəmiyyətini dəqiq müəyyən edib inkişaf etdirməyə nümunə sayılmağa layiqdir. Azərbaycan Respublikasının

*Ardı 4-cü səhifədə*

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş beynəlxalq turnirə start verilib



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş beynəlxalq şahmat turnirinə start verilib. Naxçıvan şəhərindəki Şahmat Mərkəzində keçirilən açılış mərasimində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Seymur Talıbov çıxış edərək şahmatçıları salamlayıb. Qeyd edib ki, Naxçıvanda hər il ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan ənənəvi beynəlxalq şahmat turniri keçirilir. Məlum pandemiya səbəbilə beynəlxalq şahmat festivalı öncəki illərdə təşkil edilməyib. Lakin bu il yenidən turnirə startın verilməsi



və çoxsaylı şahmatçının, eləcə də valideynlərin, sahmatsevərlərin yarışa maraq göstərməsi sevindirici haldır. Federasiya sədri vurğulayıb ki, anadan olmasının 99-cu ildönümünü qeyd etdiyimiz ümummilli liderin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir və beynəlxalq şahmat turnirinin də ulu öndərin adı ilə bağlı olması böyük əhəmiyyət kəsb edir. Seymur Talıbov çıxışının sonunda hər bir iştirakçıya uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı çıxış edərək turnir iştirakçılarına uğurlar arzulayıb və Naxçıvanın şahmat mərkəzi olmasını, eləcə də turnirin əhəmiyyətini yarış iştirakçılarının diqqətinə çatdırıb. Turnirin baş hakimi Emin Hacıyev isə turnirin qaydaları və reqlamenti barədə iştirakçılara məlumat verib. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Seymur Talıbov və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı sahmat taxtası üzərində ilk rəmzi gedişi ediblər. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən və mayın 14-dək davam edəcək beynəlxalq turnirdə Azərbaycan, İran, Türkiyə və Ukraynadan olmaqla, ümumilikdə, 214 zəka sahibi mübarizə aparır. Reqlamentə əsasən turnir İsveçrə sistemi üzrə 9 turdan ibarətdir. Hər bir şahmatçıya FIDE standartı ilə 90 dəqiqə vaxt verilir. Birinci gedişdən başlayaraq hər gedişdən sonra 30 saniyə əlavə olunur. Turnirdə yerlər toplanmış xalların cəminə görə müəyyən ediləcək. İki və ya daha çox şahmatçı eyni xal toplayarsa, yerlər əlavə göstəricilərə əsasən müəyyən olunacaq. Məlumat üçün bildirək ki, turnirdə muxtar respublikamızı 81 zəka sahibi təmsil edir.

✍ Ceyhun MƏMMƏDOV

Prezidenti cənab İlham Əliyevin Azərbaycanda VIII əsrdə tikilmiş qədim Şamaxı məscidini əsaslı şəkildə yenidən qurması, din-dövlət münasibətlərində tolerantlığı ön mövqeyə çəkməsi, müqəddəs Kəbəni ziyarət etməsi Azərbaycanda yeni cəmiyyət quruculuğunda böyük ənənələrin yaradıcı şəkildə inkişaf etdirilməsinin parlaq nəticəsidir. Artıq Azərbaycan Respublikası dünyada həm mədəniyyətlərarası, həm də dinlərarası dialoqun əsas mərkəzlərindən birinə çevrilmişdir. Dünya dini liderlərinin birinci və ikinci sammitlərinin Azərbaycanda keçirilməsi bu istiqamətdə aparılan uğurlu dövlət siyasətinin təntənəsidir. Bu, dünya dövlətləri içərisində Azərbaycanın nüfuzunun daha da artmasına meydan açmaqla bərabər, Azərbaycanda multikulturalizm və tolerantlığın daha da inkişaf etdirilməsinə özünün böyük töhfələrini vermişdir.

Azərbaycan-Pakistan əlaqələrindəki qarşılıqlı etimada əsaslanan dostluq və əməkdaşlıq münasibətləri də, xüsusilə yüksək qiymətləndirilir. Həm ümummilli lider Heydər Əliyevin, həm də Prezident cənab İlham Əliyevin Pakistana səfərləri, Pakistanın dövlət rəhbərlərinin Azərbaycanda imzaladıqları sənədlər, əldə etdikləri razılaşmalar bu ölkə ilə bütün sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər açmışdır. Pakistanla ölkəmizin hərbi, iqtisadi, diplomatik, mədəniyyət sahələrində atdığı birgə addımlar hər iki ölkə üçün əhəmiyyətli olmuşdur. Bu gün Azərbaycan üçün Pakistan ən etibarlı və əhəmiyyətli bir tərəfdaş ölkədir və dövlətlərarası münasibətlərimiz ardıcıl surətdə inkişaf etməkdədir.

Müstəqil Azərbaycan Respublikasının Asiyanın böyük dövlətləri ilə əlaqələrinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi Heydər Əliyevin 7-10 mart 1994-cü il tarixdə Çin Xalq Respublikasına səfəri, əslində, qədim İpək yolunun bərpası və iqtisadi əlaqələrin genişləndirilməsi baxımından müstəsna dərəcədə əhəmiyyətli hadisə idi. Səfər zamanı Çin Xalq Respublikasının Azərbaycanın ərazi bütövlüyünü tanımasını bəyan etməsi həmin tarixi dövrün mühüm əhəmiyyətə malik hadisəsi idi. Bundan başqa, Çin səfəri çərçivəsində sərmayələrin təşviqi, turizm, elmi-texniki əlaqələr, hava nəqliyyatı əlaqəsi, səhiyyə, teleradio sahələrində qarşılıqlı əməkdaşlığa dair imzalanmış sənədlər dövlətlərarası münasibətlərin mühüm bünövrəsini təşkil etmişdir. Ölkə rəhbəri ulu öndər Heydər Əliyevin səfər zamanı 9 mart 1994-cü ildə Pekin İctimai Elmlər Akademiyasındakı nitqində deyildiyi kimi: ***“Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının perspektivlərini müəyyənləşdirən mühüm addımlar atılmışdır. Bu, dostluq əlaqələrimizin gələcək inkişafının proqramıdır. Bütün bunlar Çin Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi deməkdir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasına səfərləri (mart 2005; avqust 2008; avqust 2014; dekabr 2015) bu böyük Asiya dövləti ilə əlaqələrin üfüqlərini daha da genişləndirmişdir. Azərbaycan Respublikasının Çin Xalq Respublikası ilə əlaqələri tarixi İpək yolunun Bakı-Tiflis-Qars dəmir yolu vasitəsilə Dəmir İpək yoluna çevrilməsi ilə nəticələnmişdir. Azərbaycan dövlətinin çətin pandemiya dövründə Çin Xalq Respublikası ilə qarşılıqlı şəkildə əməkdaşlıq etməsi ölkələrimiz arasındakı etibarlı dostluq və əməkdaşlıq münasibətlərinin mühüm bir göstəricisidir. Koronavirus bəlası ilə mübarizədə göstərdiyi dəstəyə və həmrəyliyə görə Çin Xalq Respublikasının Prezidenti Si Cinpinin Azərbaycan Respublikasına xüsusi təşəkkür məktubu göndərməsi bu nəhəng ölkə ilə əlaqələrimizin qarşılıqlı bir dostluq münasibətlərinə çevrildiyini nümayiş etdirir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Asiya siyasətində Yaponiya ilə əlaqələrin qurulub inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi xüsusi yer tutur. Görkəmli dövlət xadimi Heydər Əliyevin 24-28 fevral 1998-ci il tarixdə Yaponiyaya rəsmi səfəri Azərbaycan Respublikasının Asiya qitəsindəki tərəfdaşlığının daha da genişləndirilməsinə səbəb olmuşdur. Bu səfərdə də dünyaşöhrətli siyasətçi Heydər Əliyev Yaponiyanın ölkəmizin ərazi bütövlüyünü tanıması haqqında Bəyanatının səslənməsinə nail olmuş, iqtisadi-mədəni əməkdaşlığın yeni üfüqlərini açmışdır. Yaponiyanın dünyada qəbul edilmiş firmaları və şirkətləri ilə Azərbaycan Respublikasının əlaqələrinin yaradılması, mühüm sazişlərin bağlanması, neft sektorunda əməkdaşlığın müəyyən olunması o dövr üçün böyük əhəmiyyətə malik olan hadisələrdir.

Prezident cənab İlham Əliyevin 17-10 mart 2006-cı il tarixdə gündoğar ölkəyə – Yaponiyaya rəsmi dövlət səfəri ölkələrarası münasibətləri yeni səviyyəyə qaldırmışdır. Bundan sonra Yaponiya kapitalı Azərbaycanda müxtəlif sahələrdə daha aktiv şəkildə iştirak etməyə başlamışdır. Yaponiyanın Azərbaycanda həyata keçirdiyi sosial layihələr qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə güclü təkan vermişdir. İqtisadi sahə neft sektoru ilə bərabər, turizm və humanitar istiqamətlərdə Yaponiyanın ölkəmizdə icra etdiyi mədəniyyət layihələri ölkələrarası münasibətlərin əhəmiyyətli çalarlarına çevrilmişdir.

Eyni zamanda Asiya qitəsində özünəməxsus mövqeyə malik olan Hindistan, Cənubi Koreya, Vyetnam, İndoneziya, Malayziya, Sinqapur və başqa ölkələrlə əlaqələrin yaradılması və inkişaf etdirilməsi də Şərq ölkələri ilə əlaqələrin genişləndirilməsinə dair dahi Heydər Əliyev strategiyasının uğurlu davamıdır. Şərq ölkələri ilə çoxcəhətli əlaqələr ölkəmizin iqtisadi-mədəni inkişafında və əməkdaşlıq sahəsində mühüm nailiyyətlərin qazanılmasına əhəmiyyətli töhfələr verməkdədir.

Müstəqil Azərbaycan Respublikası Şərqlə Qərb arasında möhkəm və etibarlı körpü funksiyasını həyata keçirir. Bu, Azərbaycanda dövlət müstəqilliyinin mühüm nailiyyətidir.

**Rza TALIBOV**
***III dərəcəli dövlət miqrasiya xidməti müşaviri, dosent***
***“Azərbaycan” qəzeti***
***8 may 2022-ci il***

## Faşizm üzərində Qələbə Günü münasibətilə tədbirlər keçirilmişdir




*Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə alman faşizmi üzərində qələbənin 77-ci ildönümü münasibətilə keçirilən tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov tədbir iştirakçılarını faşizm üzərində Qələbə Günü münasibətilə təbrik edib.*

Sonra müharibə veteranlarına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından hədiyyələr təqdim olunub.

Tədbirdə İkinci Dünya müharibəsinin sovet-alman cəbhəsində qazanılmış tarixi Qələbədən söz açılıb, bu qələbənin qazanılmasında Azərbaycan xalqının, o cümlədən Naxçıvan əhalisinin misilsiz xidmətləri xatırlanıb. Qeyd olunub ki, müharibə iştirakçılarına daim yüksək diqqət və qayğı göstərən ümummilli liderimiz Heydər Əliyevin bu siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Müharibə veteranlarına göstərilən diqqət və qayğının bariz nümunəsi olaraq hər il olduğu kimi, bu il də ölkə başçısı 2022-ci il aprelin 19-da “1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” Sərəncam imzalamışdır.

Alman faşizminə qarşı mübarizədə şərurlular da öz sözlərini demişlər. Dörd il ərzində Şərur rayonundan ordu sıralarına 4 min 7 nəfər səfərbər edilmişdir. Onların çoxu həlak olmuş, yaxud itkin düşmüşdür. Tarixə qanla yazılmış 4 ildə rayondan 1789 nəfərin ailəsinə övlad dağı çəkilmiş, yüzlərlə insan sağlamlığını itirmişdir. Hazırda rayonda İkinci Dünya müharibəsində həlak olmuş və sonradan vəfat etmiş müharibə iştirakçılarının 34 nəfər dul arvadı və 32 arxa cəbhə veteranı yaşayır.

Bu gün ümummilli lider tərəfindən əsası qoyulmuş uzaqgörən siyasət ardıcıl davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 19 aprel tarixli Sərəncamına uyğun olaraq rayon üzrə 66 nəfərə birdəfəlik maddi yardım ödənilmişdir. Onlar İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərdir.

May ayının 9-da rayon ictimaiyyətinin nümayəndələri Şərur rayonunun mərkəzində İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə tər çiçəklər düzüblər.

Babək rayonunda da İkinci Dünya müharibəsində alman faşizmi üzərində qazanılan Qələbənin 77-ci ildönümü qeyd edilib. Bu münasibətlə keçirilən tədbirdə əvvəlcə rayon mərkəzində həmin müharibədə canlarından keçmiş babəklilərin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman övladlarımızın, şəhidlərimizin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə bildirilib ki, faşizm üzərində Qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük xidmətləri olub. Xalqımızın ümummilli lideri Heydər Əliyev faşizm üzərində qələbənin qazanılmasında xidməti olan insanlara hərtərəfli dövlət qayğısı göstərib.

Qeyd olunub ki, Azərbaycan xalqı Ordumuzun və Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşməklə parlaq Zəfər qazandı, 30 ilə yaxın davam edən işğala son qoyuldu. Artıq noyabrın 8-i Azərbaycanda “Zəfər Günü” kimi qeyd olunur. Bu, müstəqilliyimizin, xalq-dövlət-ordu birliyinin təntənəsi, Zəfəridir.

Ordubad rayonunda Qələbənin 77-ci ildönümünə həsr olunmuş tədbirin əvvəlində 1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış Xatirə Kompleksi ziyarət edilərək abidə önünə gül dəstələri qoyulub.

Bu bölgəmizin qəhrəman övladları da İkinci Dünya müharibəsi illərində həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və igidlik nümunələri göstəriblər. Ordubad rayonundan cəbhəyə yollanan Nəcəfqulu Rəfiyev 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən döyüşlərdə, Baroniviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərib, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə başlanandan Ordubad rayonundan cəbhəyə 3387 nəfər yollanıb, əksəriyyəti qanlı döyüşlərdə qəhrəmancasına həlak olub. Bu gün də dövlətimiz və xalqımız onların xatirəsini uca tutur.

Faşizm üzərində Qələbənin 77-ci ildönümü Culfa rayonunda da qeyd edilib. 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində Qələbənin 77-ci ildönümü İkinci Dünya müharibəsində həlak olmuş culfalıların xatirəsinə rayon mərkəzində ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman övladlarımızın, şəhidlərimizin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə bildirilib ki, milyonlarla insanın ölümünə, şəhər və kəndlərin dağılmasına, böyük iqtisadi tənəzzülə səbəb olan İkinci Dünya müharibəsində 1181 Culfa rayon sakini ön cəbhəyə yollanıbdır. Bu gün bütün Azərbaycanda olduğu kimi, muxtar respublikamızda da müharibə veteranları daim diqqət mərkəzində saxlanılır. Bunun ifadəsidir ki, culfalı müharibə veteranları da mənzillər, fərdi nəqliyyat vasitələri ilə təmin edilir, sanatoriya-kurort müalicəsinə göndərilir.

Alman faşizmi üzərində Qələbənin 77-ci ildönümü Kəngərli rayonunda da qeyd olunub. Mayın 9-da rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri Qıvraq qəsəbəsində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə gül dəstələri düzüblər. Bu müharibədə muxtar respublikamızın hər yerindən olduğu kimi, Kəngərli rayonunun qəhrəman oğulları da mərdliklə vuruşublar. Hazırda rayonda 1 İkinci Dünya müharibəsi veteranı, bu müharibədə həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin 13 dul arvadı, 6 arxa cəbhə veteranı yaşayır.

Xalqımızın qəhrəmanlıq tarixinin ən parlaq səhifəsini özündə əks etdirən və 44 gün ərzində tarixi Qələbəmizlə başa çatan Vətən müharibəsində Kəngərli rayonundan olanlar əsl qəhrəmanlıq göstərərək adlarını tariximizin yaddaşına əbədilik yazıblar. Bu azadlıq mücadiləsində rayondan 24 nəfər şəhidlik zirvəsinə ucalıb, 96 nəfər isə sağlamlığını itirərək qazi kimi evlərinə qayıdıb. Bu gün Vətən müharibəsində şəhid olan qəhrəman oğullarımızın ailələri və qazilərimiz dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə ediliblər.

Alman faşizmi üzərində qazanılan tarixi Qələbənin 77-ci ildönümü münasibətilə Şahbuz rayonunda da tədbir keçirilib. Rayonun idarə, müəssisə və təşkilat nümayəndələri 1941-1945-ci illər müharibəsində iştirak edən qəhrəman oğulların xatirəsinə yaradılmış “Ana” abidə kompleksinin önünə tər qərənfillər düzüblər. O odlu-alovlu illərdə fədakarlıq göstərən azərbaycanlılardan ibarət təşkil edilmiş 416-cı “Taqanroq”, 402-ci “Azərbaycan”, 223-cü “Belqrad” və 77-ci “Simferopol” diviziyaları şərəfli döyüş yolu keçən soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olub. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstəriblər. Bu da qürurvericidir ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçib, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olub.

1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçən oğul və qızlarımızın tarixi şücaətlərini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətlərini Azərbaycan xalqı heç vaxt unutmayacaqdır. Bugünkü və gələcək nəsil üçün nümunə olan həmin qəhrəmanların şərəfli ömür yolu sonrakı nəsillər üçün də bir məktəbdir.

1941-1945-ci illər müharibəsində Sədərək kəndindən 408 nəfər iştirak edib. Onların 207 nəfəri qəhrəmancasına həlak olub. Qələbənin 77-ci ildönümü münasibətilə keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, rayonun müxtəlif idarə, müəssisə və təşkilatlarının əməkdaşları Sədərək Rayon Mədəniyyət Sarayının foyesində təşkil edilən anım lövhəsinin qarşısına gül dəstələri qoyublar.

İkinci Dünya müharibəsində sədərəklilərin göstərdikləri igidlikləri onların övladları Azərbaycanın haqq savaşında bir daha təkrarladı. 44 gün davam edən Vətən müharibəsində dastan yazan 8 sədərəkli gənc həmin döyüşlərdə atalardan oğullara qalan qəhrəmanlığı, mübarizliyi, Vətən təəssübkeşliyini bir daha nümayiş etdirdi. Onlardan dördü torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik məqamına yüksəldi.

Tədbirlər icra hakimiyyəti başçılarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və müharibə veteranlarının iştirakı ilə çay süfrəsi arxasında təşkil edilən konsert proqramı ilə davam edib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 385